Ölkəmizi tanıyaq

Məktəblilər ölkəyə səfərdən zəngin təəssüratla ayrılıblar

"Ölkəmizi tanıyaq" maarifləndirici tur-aksiyası çərçivəsində Naxçıvan Muxtar Respublikasından Bakıya gələn məktəblilər "Atəşgah məbədi" Dövlət Tarix-Memarlıq Qoruğunda olublar.

Məktəblilər burada bayram ab-havasında - musiqi, rəqs və Novruz xonçası ilə qarşılanıb.

Məbədlə tanışlıq zamanı şagirdlərə bu qədim abidənin tarixi haqqında ətraflı məlumat verilib. Bildirilib ki, Bakının mərkəzinin 30 kilometrliyində, Suraxanı rayonu ərazisində yerləşən "Atəşgah məbədi", demək olar, bütün dünyada tanınır. Qədim dövrlərdə bu ərazidə zərdüşti atəşpərəstlərin məbədi yerləşib. Əbədi alova mistik əhəmiyyət verən atəşpərəstlər müqəddəs oda tapınmaq üçün buraya gəliblər.

XV-XVII əsrlərdə ticarət karvanları ilə Abşerona gələn atəşpərəst hindular Suraxanını ziyarət ediblər. Hindli tacirlər qədim məbədin yerində yeni tikililər inşa ediblər. "Atəşgah məbədi"nin ən erkən tikilisi 1713-cü ilə aiddir. XVIII əsrdə məbədin ətrafında ibadətgah, hücrələr, karvansara inşa edilib.

Vurğulanıb ki, 2012-ci ilin sentyabr ayından başlayaraq Heydər Əliyev Fondunun dəstəyi ilə məbədə bitişik ərazilərdə abadlıq işləri aparılıb, yardımçı binalar tikilib. Hazırda qədim atəşpərəst məbədinin qapıları yenidən ziyarətçilər üçün açıqdır və dünyanın hər yerindən turistləri cəlb edir.

Bildirilib ki, bu abidələrin qorunması və qoruğun daha da zənginləşdirilməsi üçün 2008-ci ildə Heydər Əliyev Fondunun dəstəyi ilə burada açıq səma altında ilk Qala Arxeoloji-Etnoqrafik Muzey Kompleksi yaradılıb. Şagirdlər Arxeoloji qalereya, orta əsrlərə aid yaşayış evlərinin konservasiya olunmuş qalıqları, qədim dulusçuluq, xalçaçılıq, dəmirçilik sənətinin nümunələri, interyeri və eksteryeri ilə öz dövrünü əks etdirən XIX əsrə aid iki-mərtəbəli yaşayış evini gəziblər.

Sonra məktəblilər qoruğun ərazisində fəaliyyət göstərən Qala Əntiq Əşyalar muzeyini ziyarət ediblər. Məlumat verilib ki, muzey Heydər Əliyev Fondu tərəfindən 2011-ci ildə yaradılıb.

Məktəblilər Qala qəsri və buradakı "Tullantıdan sənətə" muzeyi ilə də tanış olublar.

Naxçıvanlı məktəblilərin bu günlük son dayanacağı Dendroloji park olub. Şagirdlərə məlumat verilib ki, Mərdəkan qəsəbəsində yerləşən dendrari 1895-1920-ci illərdə mesenat və neft milyonçusu Murtuza Muxtarovun şəxsi bağı olub. Murtuza Muxtarovun evi ilə tanış olan məktəblilərin diqqətinə çatdırılıb ki, bina "kotik" üslubunda gəmi formasında layihələndirilib. Divarların eni 1 metr, hündürlüyü isə 8 metrdən ibarətdir. Binaların eyvanı hər yandan gəmi kayutasını xatırladır.

Məktəblilərə məlumat verilib ki, dendrarinin ümumi sahəsi 24 hektardır. Burada bitən flora növlərinin sayına və yaşına görə Mərdəkan dendrarisi dünyanın ən zəngin kolleksiyaları səviyyəsindədir.

Məktəblilər gəzintidən xoş təəssüratla ayrılıblar.

* * *

"Ölkəmizi tanıyaq" devizi ilə keçirilən maarifləndirici tur-aksiya çərçivəsində Naxçıvan Muxtar Respublikasından (NMR) Bakıya gələn şagirdlər Heydər Əliyev Beynəlxalq Aeroportundan NMR-ə yola salınıblar.

Muxtar respublikadan IX-XI siniflərdə təhsil alan 150 şagird, 20 bələdçi-müəllim Bakıya gəlib. Budəfəki səyahət Novruz bayramı ərəfəsinə təsadüf etdiyindən məktəblilər üçün daha yaddaqalan olub. Şagirdlər tur-aksiyada iştirak etdiklərinə görə çox sevindiklərini, arzularının reallığa çevrildiyini söyləyib, Bakıya səfərdən zəngin təəssüratlarla qayıtdıqlarını bildiriblər. Onlar göstərilən diqqət və qayğıya görə dövlətimizin başçısına təşəkkür ediblər.

Səyahət zamanı şagirdlər Bakıda Fəxri xiyabanda ulu öndər Heydər Əliyevin məzarını və Şəhidlər xiyabanını ziyarət edib, bir sıra mədəni-tarixi yerlərlə tanış olublar.

* * *

"Ölkəmizi tanıyaq" maarifləndirici tur-aksiyası çərçivəsində bir qrup məktəbli qədim Qala qəsəbəsinin tarixi, mədəni abidələri ilə tanış olub.

Məktəblilər həmçinin Heydər Əliyev Fondunun təşəbbüsü və dəstəyi ilə Qalada təşkil olunmuş müasir "Tullantıdan sənətə" muzeyində də olublar. Burada gənclər xarici və yerli sənətkarların tullantı materiallarından hazırladıqları sənət əsərlərinə baxıblar. Muzeydəki sənət əsərlərini maraqla izləyən məktəblilər gələcəkdə bu layihədə iştirak etmək istədiklərini bildiriblər.

"Ölkəmizi tanıyaq" layihəsi Prezident İlham Əliyevin tapşırığına əsasən həyata keçirilir. Maarifləndirici tur-aksiyada 67 rayon və şəhərdən olan 14 minə yaxın məktəbli iştirak edir.

* * *

"Ölkəmizi tanıyaq" maarifləndirici tur-aksiyasının iştirakçıları Naxçıvan Muxtar Respublikasının Şahbuz rayonuna gəliblər.

Şagirdlər əvvəlcə "Farma Şah" Məhdud Məsuliyyətli Cəmiyyəti ilə tanış olublar. Bildirilib ki, 2009-cu il aprelin 27-də təsis edilən müəssisə 2010-cu ildən tam fəaliyyətə başlayıb. Şahbuz şəhərində yerləşən müəssisədə paketlənmiş dərman bitkiləri, çaylar və bəkməzlər istehsal olunur. Müəssisənin avadanlıqları Çin, İran və Almaniyadan gətirilib. Burada il ərzində 8 ton xammal toplanılaraq emal olunur və qablaşdırılır.

Şahbuz şəhər 2 saylı tam orta məktəbdə şagirdlərə məlumat verilib ki, məktəb 216 şagird yerlikdir. Məktəbin 3 mindən çox dərslik və bədii ədəbiyyat fondu olan kitabxanasında internet vasitəsilə digər elektron kitabxanalara da müraciət etmək mümkündür. Şahbuz şəhər 2 saylı tam orta məktəb 2013-2014-cü tədris ilində keçirilmiş müsabiqədə "Ən yaxşı ümumtəhsil məktəbi" adına layiq görülüb. 1930-cu ildə ibtidai məktəb kimi yaradılan təhsil ocağı sonralar 8 illik, daha sonra isə tam orta məktəb statusuna yiyələnib. Müasir standartlara cavab verən, arxitekturası ilə diqqəti cəlb edən üçmərtəbəli yeni tədris binası 2014-cü ilin payızında şagirdlərin ixtiyarına verilib.

Tur-aksiya iştirakçıları təhsil ocağında üçü elektron lövhə ilə təmin olunmuş 12 sinif otağına, kimya, biologiya və fizika laboratoriyalarına, hərbi kabinəyə, kompüter, şahmat otaqlarına baxıblar. Kompüter otağında hər biri internetə qoşulmuş 19 kompüter dəsti var. Fənn laboratoriyaları müasir tədris-təcrübə avadanlıqları ilə təmin edilib. Fizika laboratoriyasında quraşdırılan elektron lövhə dərslərin və təcrübə məşğələlərinin müasir tələblər səviyyəsində keçirilməsinə imkan yaradıb.

Ağbulaq İstirahət Mərkəzi də tur-aksiya iştirakçılarının marağına səbəb olub. Ölkəmizdə kənd turizminin tətbiqi sahəsində həyata keçirilən ilkin tədbirlərin nəticəsi kimi diqqəti cəlb edən bu istirahət mərkəzi 2013-cü ildə istifadəyə verilib. 3,5 hektar ərazisi olan mərkəz 3 yaşayış korpusundan və yeməkxana binasından ibarətdir. İkimərtəbəli və 56 yerlik korpuslarda, ümumilikdə 38 otaq mövcuddur. Burada 80 nəfərlik yemək zalı, mətbəx, ilkin tibbi yardım və 6 iş otağı var. İstirahət mərkəzində kənd məhsullarının satışı mağazası da fəaliyyət göstərir.

Batabat Astrofizika Rəsədxanasında səma cisimlərinin dinamikası və fizikasının öyrənilməsi istiqamətində aparılan araşdırmalar barədə məlumatları maraqla dinləyən şagirdlər rəsədxana ilə yaxından tanış olublar. Dəniz səviyyəsindən 2050 metr yüksəklikdə yerləşən rəsədxana binasının günbəzində "SEYYS-600" tipli teleskop quraşdırılıb. Almaniya istehsalı olan teleskopun qurulması prosesində yerli mütəxəssislərlə yanaşı, Moskva Dövlət Universiteti Astronomiya İnstitutunun əməkdaşları da iştirak ediblər. Muxtar respublika ərazisinin astronomik şəraiti əlverişli, səması təmiz və şəffaf olduğundan bu stansiyada Günəşdən başqa bütün göy cisimlərini - planetləri, kometləri, asteroidləri, ulduzları və yaxın qalaktikaları müşahidə və tədqiq etmək mümkündür.

Şahbuz Dövlət Təbiət Qoruğu ilə tanışlıq isə buradakı muzeydən başlayıb. Muzeydə qoruq ərazisindəki flora və faunaya aid eksponatlar nümayiş etdirilir. Qoruqda 2899 bitki növü yayılıb ki, bunların bir çoxu, məsələn, müxtəlif rəngli və ətirli süsən növləri, dağlarda yayılmış Şərq laləsi, ətirli yabanı qərənfil növləri, səhləb, paradoksal süsən və başqaları endemikdir. Geniş müxtəlifliyə malik bitki örtüyü 285 növ faunanın bu ərazilərdə yayılmasına imkan verib. Qoruğun ərazisi geoloji cəhətdən Təbaşir yaşlı çöküntülərdən ibarət sıldırım qayalıqlarla, nival və allüvial relyef formaları ilə səciyyələnir. Ərazidə şabalıdı və torflu torpaq tiplərinin mövcudluğu landşaft-bitki örtüyünün formalaşmasında böyük rol oynayıb.

Məktəblilər Batabat yaylağının füsunkar gözəlliyini maraqla seyr etdilər, Naxçıvanın ecazkar təbiətinə heyran qaldıqlarını bildiriblər.

* * *

Yevlax, Ucar, Zərdab, Ağdam, Xocalı, Xocavənd, Kəlbəcər və Laçın rayonlarının məktəbliləri "Ölkəmizi tanıyaq" tur-aksiyası çərçivəsində Lənkəranla tanışlıqdan sonra Lerik və Astara rayonlarına səyahət ediblər.

Məktəblilər Lerikdə Heydər Əliyev Mərkəzində, Tarix-diyarşünaslıq və Uzunömürlülər muzeylərində nümayiş etdirilən eksponatlar və fotoşəkillərlə, "Relax" turizm və istirahət mərkəzində yaradılan şəraitlə yaxından tanış olublar.

Rayon icra hakimiyyəti başçısının müavini Arzu Vəliməmmədova tur-aksiyanın iştirakçılarına rayon haqqında məlumat verərək bildirib ki, ölkəmizin ən qədim yaşayış məskənlərindən biri olan Lerik hazırda öz inkişafının yeni mərhələsini yaşayır. Bu inkişafın təməlində ulu öndər Heydər Əliyevin əsasını qoyduğu və Azərbaycan Prezidenti İlham Əliyevin uğurla davam etdirdiyi siyasət dayanır.

Lerik şəhərindəki Uzunömürlülər muzeyində nümayiş etdirilən eksponatlarla böyük maraqla tanış olan şagirdlərə məlumat verilib ki, Azərbaycanın dilbər guşələrindən biri olan Lerik rayonu təkcə özünün qədim tarixi, əsrarəngiz gözəllikləri ilə deyil, uzunömürlü insanları ilə də tanınır. Vaxtilə planetimizin ən qocaman sakini olan Şirəli Müslümov bu dağlar qoynunda 168 il ömür sürüb. Muzeyin direktoru Dilarə Fətullayeva qeyd edib ki, hazırda rayonda yaşı 80-dən yuxarı 775, 89-90 yaş arası 100 nəfər, yaşı 100-dən yuxarı 8 uzunömürlü yaşayır.

Daha sonra Astaraya səfər edən məktəblilər rayonda fəaliyyət göstərən "Astaraçay" fabrikində istehsal prosesini izləyib, Heydər Əliyev Mərkəzində ulu öndərin zəngin və mənalı ömür yolunu əks etdirən eksponatlar və fotoşəkillərlə tanış olub, Astara şəhərində Xəzər dənizi sahili boyu 8 hektar ərazidə salınmış park-bulvar kompleksini gəziblər.

Məktəblilər, həmçinin Astara rayonunun Ərçivan qəsəbəsindəki "Yanar bulaq"da, "Ulduz" bədii filmində Məhəmmədlə Züleyxanın tanışlıq səhnəsinin lentə alındığı "Ləm" yay istirahət evində olublar. Cənub bölgəsində gördüklərini həmişə xatırlayacaqlarını bildirən məktəblilər bu səfərin onlarda zəngin təəssürat yaratdığını deyiblər.

* * *

"Ölkəmizi tanıyaq" maarifləndirici tur-aksiyasının iştirakçıları Naxçıvan şəhərinin mədəniyyət müəssisələri, qədim tarixi ilə yaxından tanış olublar.

Naxçıvanın zəngin, qədim tarixi ilə bağlı 48 mindən çox eksponatın qorunub saxlandığı Naxçıvan Dövlət Tarix Muzeyi məktəblilərdə dərin təəssürat yaradıb. Diqqətə çatdırılıb ki, ekspozisiyalar, əsasən, qədim, orta əsrlər, yeni və müasir dövrü əhatə edir. On şöbədən ibarət olan muzeydə müxtəlif əmək alətləri, Paleolit və Neolit dövrlərinin əşyaları, dən daşları, obsidiandan lövhələr, daş çəkiclər, sümük bizlər, Naxçıvan Muxtar Respublikası ərazisində aşkar olunan mis və gümüş pullar, orta əsrlərin məşhur memarlarından olmuş Əcəmi Əbubəkr oğlu Naxçıvaninin inşa etdiyi möhtəşəm Möminə Xatın, Yusif Küseyir oğlu türbələrinə və başqa memarlıq abidələrinə dair şəkilli materiallar, xalçaçılıq, zərgərlik, misgərlik, dulusçuluq və nəqqaşlıq nümunələri, xalq ustalarının əl işləri sərgilənir.

Naxçıvan şəhərinin ən hündür məkanında qərar tutan Dövlət Bayrağı Meydanı və Muzeyi də böyük maraq doğurub. Qeyd edilib ki, Dövlət Bayrağı Meydanı və Muzeyi Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2014-cü il avqustun 22-də imzaladığı "Naxçıvan şəhərində Dövlət Bayrağı Meydanı və Muzeyinin yaradılması haqqında" sərəncama əsasən yaradılıb. Buradakı bayraq dirəyinin hündürlüyü 57 metr, bayrağın uzunluğu 20, eni isə 10 metrdir. Bayraq dirəyinin yerləşdiyi 7 mərtəbəli binada Bayraq Muzeyi yerləşir. Səkkizguşəli ulduz formasında olan muzey binası eyni quruluşa malik sütunlarla əhatələnib.

Bayraq Muzeyi dövlət atributlarımızın tarixi və onların gələcək nəsillərə çatdırılması baxımından müstəsna əhəmiyyətə malikdir. Muzeydə ümummilli liderimiz Heydər Əliyevin təşəbbüsü ilə 1990-cı il noyabrın 17-də Naxçıvan Muxtar Respublikasının ali qanunverici orqanında qəbul olunan "Naxçıvan Muxtar Respublikasının Dövlət rəmzləri haqqında" qərarın surəti və həmin tarixi günə aid fotoşəkillər nümayiş etdirilir. Tarixən Naxçıvan ərazisində mövcud olmuş dövlətlərin, eləcə də Naxçıvan xanlığının bərpa edilmiş bayraqları, gerblər və inzibati xəritələri, Naxçıvan xanlığının süvari dəstələrinə verilən bayraqlar, döyüşçü libasları, Naxçıvan Muxtar Respublikasının müxtəlif illərdə qəbul olunmuş konstitusiyaları, qədim pul nişanlarının fotoşəkilləri muzeyin ekspozisiyasında sərgilənir.

Sonra "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksinə gələn tur-aksiyanın iştirakçılarına muxtar respublikanın ərazisində aşkarlanan tarixi əşyalar haqqında ətraflı məlumat verilib. Bildirilib ki, eramızdan əvvəl V minilliyə aid təsərrüfat küpü, eramızdan əvvəl V-III minilliyə aid müxtəlif məişət əşyaları, Son Tunc və Erkən Dəmir dövrünə aid keramika məmulatları, mis alətlər, qəbirüstü abidələr, silahlar qiymətli eksponatlardır. Naxçıvanın 5 minillik şəhər mədəniyyəti şagirdlərdə böyük maraq doğurub. Kompleksin yanında yerləşən Nuh peyğəmbərin türbəsi də dahilər yurdunun qədim tarixindən xəbər verir.

Sonra məktəblilər Duzdağ Fizioterapiya Mərkəzinə gəliblər. Qeyd edilib ki, mərkəz 1979-cu il dekabrın 29-dan 50 çarpayılıq xəstəxana kimi Naxçıvan duz mədəni bazasında, dəniz səviyyəsindən 1173 metr hündürlükdə fəaliyyət göstərir. 2003-cü ildə xəstəxananın yeraltı şöbəsində ən müasir tələblərə uyğun olaraq yenidənqurma işləri aparılıb, yeraltı şöbə genişləndirilib, müasir avadanlıqlarla və ləvazimatlarla təmin edilib. Duzdağ Fizioterapiya Mərkəzinin digər duz şaxtalarından üstünlüyü ondadır ki, şaxta horizontal yerləşdiyindən xəstələr yeraltı şöbəyə tez adaptasiya olunurlar.

"Ölkəmizi tanıyaq" maarifləndirici tur-aksiyasının iştirakçıları Naxçıvan Muxtar Respublikasının Kəngərli rayonuna səfər ediblər.

Rayondakı Naxçıvan Sement zavoduna gələn şagirdlərə bildirilib ki, burada sement müasir quru üsulu ilə istehsal edilir. Region ölkələrində bu üsulla sement istehsal edən çox az müəssisə var. Quru üsulla sement istehsalı zavodun yanacaq sərfini minimuma endirir. İstehsal edilən sementin keyfiyyəti zavod istifadəyə verilənə qədər muxtar respublikaya idxal olunan eyni məhsullardan olduqca yüksəkdir. Artıq istehsal edilən məhsul ölkəmizin müxtəlif regionlarına, eləcə də Türkiyəyə və Gürcüstana göndərilir.

Kəngərli Rayon Tarix-Diyarşünaslıq Muzeyi ilə tanışlıq zamanı məlumat verilib ki, Kəngərli rayonu 2004-cü ildə yaradılıb. Rayonun ərazisindəki çoxsaylı arxeoloji abidələrdə aparılan qazıntılar zamanı qədim insanların həyat tərzini əks etdirən maddi mədəniyyət nümunələri aşkar edilib. Son Tunc və İlk Dəmir dövrünə aid Qalacıq yaşayış yeri, 1-ci Qarabağlar, 2-ci Qarabağlar, Govurqala, Çalxanqala, Şahtaxtı kəndinin yaxınlığındakı qədim şəhər yeri, Şahtaxtı Govurqalası və nekropolları, Yurtçu qədim yaşayış yeri, buradakı kurqanlar və sərdabələr bu ərazinin qədim tarixə malik olduğunu sübut edir. Yurdçu kəndi yaxınlığında müxtəlif dövrlərə aid mis və gümüş dəfinəsinin aşkar edilməsi vaxtilə bölgənin qədim dövlət idarəçiliyi mərkəzlərindən biri olduğunu söyləməyə əsas verir.

Qarabağlar kənd tam orta məktəblə tanışlıq şagirdlərdə xoş təəssürat yaradıb.

Tur-aksiya iştirakçıları muxtar respublikanın Kəngərli rayonundakı orta əsrlərə aid tarixi-memarlıq abidəsi olan Qarabağlar türbəsi ilə də yaxından tanış olublar. Memarlıq kompleksinə daxil olan qoşa minarənin XII əsrin sonu - XIII əsrin əvvəllərində tikildiyi ehtimal edilir. Minarələri bir-birinə bağlayan baştağ isə XIV əsrə aiddir. Onun üzərindəki kitabədə ərəb dilində bu sözlər yazılıb: "Allahın bu nişanəsi türkman Quti xatındır". Söhbət Elxani hökmdarı Hülaku xanın arvadı Quti xatından gedir. Məktəblilər tarixi abidəni heyranlıqla seyr ediblər.

* * *

Respublikamızın şəhər və rayonlarının IX-XI sinif şagirdləri üçün "Ölkəmizi tanıyaq" devizi ilə keçirilən maarifləndirici tur-aksiya başa çatıb.

İsmayıllı-Qəbələ-Şəki marşrutu üzrə tur-aksiyada iştirak edən Bərdə, Ağcabədi və Mingəçevir məktəblilərindən ibarət 3 qrupun üzvləri Qəbələdəki "Qafqaz Yeddi Gözəl" hotelindən yaşadıqları rayonlara yola düşüblər. Tur-aksiyanın iştirakçılarını rayon rəhbərliyi və təhsil işçiləri yola salıblar.

Mərasimdə çıxış edən müəllim və şagirdlər 4 günlük tur-aksiyanın onların yaddaşında dərin iz buraxdığını bildiriblər. Qrup rəhbəri Firəngiz Həsənova deyib: "Ekskursiya proqramı son dərəcə maraqlı və yaddaqalan oldu. Bu səyahətin xoş təəssüratları uzun zaman unudulmayacaq. Şagirdlər ekskursiya zamanı istirahət etməklə yanaşı, regionlarımızın gündən-günə inkişaf etməsinin şahidi oldular".

Şagirdlərdən Gülşən Məsimova və Nurlan Fərzəlizadə Qəbələ, İsmayıllı və Şəkiyə səfər təəssüratlarını belə ifadə ediblər: "Tur-aksiya çox maraqlı keçdi. Vətənimizin füsunkar təbiəti var. Qədim tarixi abidələrlə tanış olduq, İsmayıllının, Qəbələnin, Şəkinin görməli yerlərini gəzdik. Xüsusən də Şəki Dövlət Tarix-Memarlıq Qoruğu və Şəki xanlarının sarayı, İsmayıllı rayonunun təbiəti, qədim Qəbələnin müasir inkişafı, "Beltmann" piano fabriki, "Tufandağ" Qış-Yay Turizm İstirahət Kompleksi bizdə yüksək təəssürat yaratdı. Burada gördüklərimiz, öyrəndiklərimiz barədə məktəbli yoldaşlarımıza, dostlarımıza da məlumat verəcəyik. Tur-aksiyanın təşkilatçılarına minnətdarlığımızı bildiririk".

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırığına əsasən, "Ölkəmizi tanıyaq" layihəsi çərçivəsində respublikamızın regionlarına təşkil edilmiş maarifləndirici tur-aksiya başa çatıb. Yevlax, Ucar, Zərdab, Ağdam, Xocalı, Xocavənd, Kəlbəcər və Laçın rayonlarının ümumtəhsil məktəblərinin şagirdləri və onların müəllimləri dörd gün ərzində cənub bölgəsinə səyahət zamanı şəhər və rayonların tarixini, mədəniyyətini, əhalinin həyat tərzini və məişətini əks etdirən abidələrlə, muzeylərlə, ərazinin turizm potensialı, regionların sosial-iqtisadi inkişafına dair dövlət proqramının icrası istiqamətində görülən işlər və həyata keçirilən infrastruktur layihələri ilə yaxından tanış olublar.

Tur-aksiya iştirakçılarını Lənkəran Şəhər İcra Hakimiyyətinin məsul işçiləri, müəllimlər və ictimaiyyətin nümayəndələri Lənkəran şəhərindəki Bayraq Meydanından yola salıblar.

Cənub bölgəsindən zəngin təəssüratla ayrılan aksiya iştirakçıları ölkəmizi daha yaxından tanımaq üçün yaradılan şəraitə görə dövlətimizin başçısına minnətdarlıqlarını bildiriblər.

AZƏRTAC